# "Uşaq Səfirlər Məclisi"nin üzvləri Qəbələ Dövlət Tarix-Bədii Qoruğunu ziyarət ediblər

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yanında "Uşaq Səfirlər Məclisi"nin Qəbələ rayonu üzrə nümayəndələri və fəallarının Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna səfərləri təşkil olunub.




Qoruqdan AZƏRTAC-a bildirilib ki, uşaqlar əvvəlcə Qəbələ Arxeoloji Mərkəzində olublar. Onlara mərkəzin yaradılması və bu sahədə SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının gördüyü işlər barədə məlumat verilib. Qonaqlar mərkəzdə sərgilənən arxeoloji materiallarla, Qəbələnin tarixi, etnoqrafiyası və folkloruna aid kitablar toplusu ilə tanış olub, SEBA Assosiasiyasının sifarişi ilə hazırlanan "Qafqaz Albaniyasının paytaxtı - Qəbələ" sənədli filmini izləyiblər.

Sonra "Uşaq Səfirlər Məclisi"nin üzvləri qoruğun arxeoloji ərazilərinə səfər edib, arxeoloji qazıntılar aparılan sahələrlə tanış olublar. Uşaqlara burada aparılmış arxeoloji qazıntılar və arxeoloqlar tərəfindən aşkar olunan tarixi tapıntılar barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Azərbaycan.- 2024.- 8 avqust (№ 167).- S.5.